

# DTX: ERMƏNİSTAN VƏTƏNDAŞI R.VARDANYAN TƏQSİRLƏNDİRİLƏN ŞƏXS QİSMİNDƏ SAXLANILARAQ MƏSULİYYƏTƏ CƏLB OLUNMUŞDUR

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərində fəaliyyət göstərmiş qanunsuz erməni silahlı birləşmələri tərəfindən ötən müddət ərzində törədilmiş çoxsaylı terrorçuluq cinayətlərinin araşdırılması ilə bağlı Dövlət Təhlükəsizliyi Xidmətində ibtidai istintaq aparılır.

Toplanılmış sübutlarla, hazırda Ermənistan Respublikasının vətəndaşı olan 1968-ci il təvəllüdlü Vardanyan Ruben Karlenoviçin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214-1 (terrorçuluğu maliyyələşdirmə), 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların yaradılmasında və fəaliyyətində iştirak etmə) və 318.1-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə nəzərdə tutulan cinayət əməllərini törətməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Ona qarşı irəli sürülən ittihama əsasən, müəyyənləşdirilmişdir ki, Ruben Vardanyan xarici ölkə vətəndaşı olduğu halda terror-təxribat əməlləri törətmək məqsədilə 2022-ci ilin sentyabr ayında Azərbaycan Respublikasının dövlət sərhədini nəzarət-buraxılış məntəqələrindən kənar, qanunsuz keçərək, Azərbaycan Respublikasının Qarabağ iqtisadi rayonunda Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi əraziyə daxil olmuş, həmin ərazidə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin formalaşdırılması və fəaliyyətinin təşkilində, habelə idarələrə, təşkilatlara və ayrı-ayrı şəxslərə insanların həlak olmasına və digər ağır nəticələrə səbəb olan basqınlar etmiş sözügedən qanunsuz hərbi birliklərin silah, döyüş sursatı, partlayıcı maddələr, hərbi texnika və əsgəri ləvazimatla təchiz edilməsində iştirak etmişdir.

Bundan başqa o, pul vəsaitlərini həmin qanunsuz silahlı birləşmələrin terrorçuluq fəaliyyətinin təşkil olunmasına yönəltməklə terrorçuluğu maliyyələşdirmişdir.

Törətdiyi qeyri-qanuni əməllərə görə Ruben Vardanyan 27 sentyabr 2023-cü il tarixində saxlanılaraq, ittiham elan edilməklə təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb olunmuş, barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# QARABAĞDA "ŞEYTAN YUVASI" DAĞILDI - İNDİ NÖVBƏ PAŞİNYANIN: BAKI DAHA BİR İSTƏYİNƏ ÇATIR

***Azərbaycanın Qarabağ bölgəsindəki separatçı qurum özünü buraxdığını elan etdi. Əslində onlar özlərini çoxdan "buraxmışdılar". 44 günlük müharibədəki ağır məğlubiyyətdən sonra Azərbaycanın legitim ərazisində növbəti qondarma "prezident seçkiləri" keçirəndə, mövqelərimiz istiqamətində yeni döyüş məntəqələri yaradıb, səngərlər qazanda, Azərbaycan polisinin, əsgərinin yoluna mina düzəndə özlərini buraxmışdılar.***



19-20 sentyabr tarixlərini əhatə edən lokal antiterror tədbirləri Qərbin bir çox dairələrinin, ABŞ konqresmenlərinin dəstəyini əsirgəmədiyi bütün bu terrorçuların, cinayətkarların sonunu gətirdi. Nəticədə Azərbaycan Ordusu 23 saat 43 dəqiqəyə Qondarma rejim qalıqlarını və Ermənistan silahlı qüvvələrinin Qarabağdakı silahlı birləşmələrini ağ bayraq qaldırmağa vadar etdi.

Bu gün isə Azərbaycanın Qarabağ bölgəsindəki separatçıların "rəhbəri" Samvel Şahramanyan qondarma qurumun özünü buraxdığını elan etməsinə şahid olduq. Bu, Şahramanyanın müstəqil, rahat qəbul etdiyi qərardırmı? Təbii ki, xeyr! Separatçıların "liderinin" belə bir qərar qəbul etməsi heç şübhəsiz ki, öz xoşluğu ilə verilmiş qərar olmadığı hər kəsə bəllidir. Qondarma rejimin özünü buraxması ilə bağlı qərar məcburiyyətdən atılmış addımdan başqa bir şey deyil. Bununla da Qarabağda separatçılığın sona çatdığını məhz qondarma rejim qalıqları özləri elan etmiş oldular.

Bu isə o deməkdir ki, Azərbaycan mərkəzi hakimiyyətinin təzyiqləri öz nəticəsini verdi və separatçılar anladılar ki, onlar üçün ən doğru, ən yaxşı qərar məhz başqasının torpağında qondarma "respublika" iddialarından əl çəkib, ərazini tərtk etməkdir. Bunun əksinin hansı proseslərlə nəticələnəcəyini zatən Azərbaycan 19-20 sentyabrda cəmi 23 saat davam edən lokal antiterror tədbirləri ilə istər separatçılara, istərsə də Ermənistan hakimiyyətinə və onun havadarlarına nümayiş etdirdi.

Bu, faktiki olaraq Azərbaycan torpaqlarında 35 illik separatçı hərəkatın sonu deməkdir. Azərbaycan bununla tək separatizm üzərində qələbə çalmadı, erməni ideologiyasına, erməni lobbisinə və onlarla əlaqələri olan mərkəzlərə zərbə vurmuş oldu. Ermənilər arasında hazırda dərin fikir ayrılğının yaranması, parçalanmalara şahidlik etməyimiz, çatların böyüməsi deməyə əsas verir ki, Azərbaycan növbəti tarixi zəfərə imza atmış oldu.

Ötən gün Qarabağda separatizmi alovlandıramq, revanşist qüvvələri ətrafında daha da çox cəmləşdirib, Azərbaycana qarşı terror əməmlləri törətmək üçün silahlı birləşmələrin tərkini genişləndirmək planları quran qondamra rejimin keçmiş qondarma "dövlət naziri" Ruben Vardanyanın Laçın sərhəd buraxılış məntəqəsində ələ keçməsi ölkəmizə barmaq uzadanların barmaqlarının necə qoparılacağını göstərdi. Təbii ki, Qarabağda bu "təmizlik işi" zaman keçdikcə daha da sürətli hal alacaq və Araik Arutyunyan, Vitali Balasanyan, David Babayan və s. adını çəkmədiyim separatçıları da bu sonluq gözləyir. Azərbaycana qarşı törətdikləri cinayətlərə görə hər biri Azərbaycan qanunları qarşısında cavab verməli olacaq. O gün artıq yetişdi.

BUnutmamalıyıq ki, bu gün Qarabağda separatizmin kökünün kəsilməsi iki ölkə - Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması prosesini də sürətləndirəcəyi istisna edilmir. Çünki 44 günlük müharibədən üzü bu yana - geridə qalan 3 il ərzində Bakı ilə İrəvan arasında yekun sülhün imzalanması barədə hər dəfə mövzu düşəndə Ermənistan tərəfi dərhal Qarabağ ermənilərinin "təhlükəsizliyi və hüquqlarının müdafiəsi" məsələsini əllərində silah edərək prosesi ləngitmək üçün müxtəlif cür ondan istifadə edirdilər. Amma bu gün Azərbaycanın Qarabağ iqtisadi zonasında şeytan yuvasını dağıdıb, separatizmin sonunu gətirməklə rəsmi İrəvanın manevr imkanlarını daraltmağı bacardı.

Bəli, Qarabağda separatçı ocağın söndürülməsi Ermənistanla Azərbaycan arasında sülh sazişi imzalamaq imkanlarını artırır. Qarabağ Ermənistan üçün siyasi, iqtisadi və hərbi yük idi. Bunu nə qədər Ermənitan ictimaiyyəti və rəsmi dairələri etiraf etməsələr də onlar bu yükdən qurtuldular. Doğrudur, erməni lobbisi və yerli radikallar da Azərbaycanla Ermənistan arasında əsas maneə idilər, lakin Qarabağ erməniləri mövzusu Nikol Paşinyan hakimiyyətinin 3 il ərzində əsas "rıçaqı" oldu. Amma bütün bu bəhanələr İrəvanın əlindən çıxdı. İndi Nikol Paşinyan üçün o əli doldurmağa sülh sənədindən yaxşı nəsə görmürəm.

Azərbaycan öz tarixi, doğma torpaqlarında suverenliyini bərqərar etdi. Ermənistandan fərqli olaraq bunu hər hansı bir işğal, soyqırım, hərbi cinayətlər hesabına yox, beynəlxalq hüququn bütün qaydalarına uyğun olaraq həyata keçirildi. 30 il əvvəl Ermənistanın Azərbaycana qarşı işğalçı hücumları zamanı vətəndaşlarımıza qarşı törətdikləri vəhşiliklər fonunda reinteqrasiya prosesi ilə tanış olan və Azərbaycan vətəndaşlığını qəbul edən ermənilərin mərkəzi hakimiyyət tərəfindən Qarabağa qayıtmasına icazənin verilməsi isə növbəti humanist addımımızdır.

44 günlük İkinci Qarabağ müharibəsi ilə əldə etdiyimiz tarixi qələbə bu gün rəsmi şəkildə tamamlandı. Kollektiv Qərbin, hətta okeanın o tayından belə gələn sifarişlər əsasında Türk dünyasına qarşı faktiki olaraq "səlib yürüşü" gerçəkləşdirmək məqsədi ilə bölgəmizə köçürülən ermənilərin "Miatsum", "böyük ermənistan" kimi "ideyalar"ı məhv oldu.

Çünki belə bir qurumun yaradılmasının 200 illik siyasi-ideoloji, 100 illik isə siyasi-hüquqi əsasları vardı. Bu əsaslar Azərbaycanı daima təzyiq altında saxlamaq, itaət etmədikdə onu cəzalandırmaq və daha da kiçiltmək üçün yaradılmış xüsusi strateji layihə əsasında formalaşdırılmışdı. Elə torpaqlarımızın 30 il işğal altında qalması bunların nəticəsi idi. Ancaq Azərbaycan özünə qarşı olan bütün haqsızlıqlara, ədalətsizliklərə, ikilistandartalara rəğmən ərazi bütövlüyünü bərpa etdi və bu gün bütün Qarabağda Azərbaycan qanunlarının işləməsi üçün artıq hər şey hazırdır.

Nəyi, necə, nə vaxt etməli olduğunu yaxşı bildiyini bütün dünyaya isbat edən Prezident İlham Əliyevin uzaqgörən siyasəti, güclü Ordumuzun sayəsində Azərbaycanı parçalayaraq onu Cənubi Qafqazın siyasi coğrafiyasından silmək istəyənlərin 200 illik planları cəmi 44 gündə darmadağın edildiyi kimi 23 saat 43 dəqiqəyə də bütövlüyümüz son qarışına kimi nəzarətimizə keçdi. Nəticədə 2020-ci il sentyabr ayının 27-də başlayan tarixi zəfərimiz 2023-cü il sentyabr ayının 20-də hər qarış ərazimizdə suverenliyimizin bərpası ilə sona çatdı. Bu sonluq bölgəmizdə baş qaldıran erməni separatizminin, işğalçı maraqların, revanşist qüvvələrin sonu oldu.

***Təhməz Əsədov, Trend***

# CİNAYƏTKARLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ UĞURLA DAVAM ETDİRİLİR



Hakimiyyet.info.az xəbər verir ki,"Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 07.10.2002-ci il tarixli Konvensiyanın tələblərinə uyğun olaraq Rusiya Federasiyasının vətəndaşları Bayramov Mustafa Nəriman oğlu, Elizarov Viktor Yevqenyeviç və Kozlov Mixail Vyaçeslavoviçin cinayət məsuliyyətinə cəlb edilməsi üçün verilməsinə dair Rusiya Federasiyası Baş Prokurorluğunun vəsatətləri Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən təmin edilib.

Mustafa Bayramov və Mixail Kozlovun Rusiya Federasiyası Cinayət Məcəlləsinin 159-cu maddəsinin 4-cü hissəsi (mütəşəkkil dəstə tərəfindən xüsusilə külli miqdarda dələduzluq), Viktor Elizarovun isə həmin Məcəllənin 135-ci maddəsinin 3-cü hissəsi (yetkinlik yaşına çatmamış şəxsə qarşı əxlaqsız hərəkətlər etmə) ilə nəzərdə tutulmuş cinayət əməllərini törətmələrinə əsaslı şübhələr müəyyən edildiyindən, barələrində həmin ölkənin səlahiyyətli orqanları tərəfindən təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar qəbul edilməklə istintaqdan qaçıb gizləndikləri üçün dövlətlərarası axtarışa veriliblər.

Qeyd olunan şəxslər Azərbaycan Respublikasına gələn zaman Heydər Əliyev adına Beynəlxalq Hava Limanında sərhəd nəzarətindən keçərkən, axtarışda olduqları üçün saxlanılaraq barələrində həbs qətimkan tədbiri seçilib. Sentyabrın 28-də Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin xüsusi konvoyunun müşayiəti ilə həmin şəxslər Rusiya Federasiyasının səlahiyyətli orqanlarına təhvil verilib.

*Təsisçi:* Füzuli İsmayılov və redaksiyanın jurnalist kollektivi

*İdeya rəhbəri:* *Loğman Rəşidzadə*

*Baş redaktor:* Füzuli Əfqanoğlu

*Məsul əməkdaşlar:*
Telman Bağırov,
Elvin İsmayılzadə,
Mehriban İsmayılzadə,
Dəyanət Kərimov

*Bank rekvizitlərimiz:*
Kapital Bank ASC-nin
Nəsimi rayon filialı
"Hakimiyyət" qəzeti
VÖEN 1400875811
Hesab №
AZ67AIIB40060019440409430111

Qəzet 1994-cü ildə Mətbuat və İnformasiya Nazirliyində rəsmi qeydiyyata alınaraq, 173-saylı şəhadətnamə ilə fəaliyyət göstərir

Qəzet redaksiyanın "Jalə" kompüter mərkəzində yığılaraq "Son dəqiqə" mətbəəsində çap olunub.

Tiraj: 1550

*Ünvan:* Bakı, Azadlıq pr. 161 B

Telefon: (050) 680-99-76
E-mail: *hakimiyyet@gmail.com*
*hakimiyyet.tv@gmail.com*

*Bizi sosial şəbəkələrdə izləyin:*
*Facebookda: Hakimiyyət qəzeti,*
*İnstaqramda: Hakimiyyət Qəzeti*
*Youtube-da: Hakimiyyet TV*
*Tvitterdə: HakimiyyetC*

# DÖVLƏT DEPARTAMENTİ ABŞ HÖKUMƏTİNİN FƏALİYYƏTİNİ DAYANDIRMAĞA HAZIRLAŞIR




ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller bildirib ki, departament ABŞ hökumətinin oktyabrın 1-dən fəaliyyətinin mümkün dayandırmasına, o cümlədən Konqres yeni büdcə ilə bağlı qərar qəbul etməyəcəyi təqdirdə işin qismən dayandırılması ehtimalına hazırlaşır.

Metyu Miller vurğulayıb ki, hazırda Dövlət Departamenti ABŞ hökumətinin işini dayandıracağı təqdirdə fövqəladə fəaliyyət planı hazırlayır.

# KÜLLİ MİQDARDA TÜTÜN MƏMULATLARI AŞKARLANIB



DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən Hakimiyyet.info.az-a verilən məlumatda bildirilir ki, Azərbaycan Respublikası ərazisinə qaçaqmalçılıq yolu ilə gətirilmiş, üzərlərində Azərbaycan Respublikasının müvafiq aksiz markası olmayan müxtəlif adda tütün məmulatlarının Bakı şəhəri ərazisində realizə edilməsi barədə daxil olmuş əməliyyat məlumatı əsasında Dövlət Gömrük Komitəsinin Əməliyyat-İstintaq Baş İdarəsi və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsi birgə əməliyyat-axtarış tədbirləri həyata keçiriblər. Nəticədə 43000 (qırx üç min) qutu qanunvericiliyin tələblərinə uyğun olaraq aksiz markası ilə markalanmayan müxtəlif adda tütün məmulatları aşkarlanıb.

Faktla bağlı araşdırma aparılır.



# BAŞ PROKURORLUĞUN RƏHBƏR HEYƏTİ İNŞASI DAVAM ETDİRİLƏN ZƏFƏR PARKINDA OLUB

Sentyabrın 27-də "Anım Günü" münasibətilə Azərbaycan Respublikasının Baş Prokurorluğunun rəhbər heyəti Bakıda inşası davam etdirilən Zəfər parkında olub. Prokurorluq əməkdaşları Parkdakı xatirə daşının önünə gül dəstələri düzərək Vətənimiz uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsini ehtiramla anıblar.

# AZƏRBAYCAN POLİSİ ARTIQ XANKƏNDİDƏ XİDMƏT APARIR

Azərbaycan polisi Xankəndi küçələrində ictimai asayişi qoruyur. Bu barədə görüntülər sosial mediada yayılıb. Kadrlardan görünür ki, Azərbaycan polisi artıq Xankəndi şəhərində xidməti vəzifələrini yerinə yetirməyə başlayıb.



Xatırladaq ki, ötən gün Azərbaycanın Qarabağ bölgəsindəki qondarma qurum özünü buraxdığını elan edib. Qondarma rejimin qondarma "başçısı" Samvel Şahramanyanın "sərəncamında" qeyd olunub ki, Rusiya sülhməramlı kontingentinin vasitəçiliyi ilə Azərbaycan Respublikasının nümayəndələri ilə əldə olunan razılaşmaya əsasən, Qarabağ sakinlərinin, o cümlədən, tərksilah olan hərbi qulluqçuların əmlakları ilə öz nəqliyyat vasitələrində Laçın dəhlizindən sərbəst və maneəsiz şəkildə könüllü keçidi təmin olunur və "Dağlıq Qarabağ Konstitusiyası"nın 93-cü maddəsini rəhbər tutaraq aşağıdakılar qərara alınır:

1. 1 yanvar 2024-cü il tarixindən "Artsax Respublikası"nın tabeçiliyində olan bütün dövlət müəssisələri və təşkilatları buraxılsın və "respublika" öz mövcudluğunu dayandırsın.

2. Qarabağ əhalisi, o cümlədən "respublika"dan kənarda olan sakinlər hazırki gələcəkdə Qarabağda yaşamaq (qayıtmaq) imkanları barədə sərbəst və fərdi qərar qəbul etmək məqsədilə "sərəncam" qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının təqdim etdiyi reinteqrasiya şərtləri ilə tanış olsun.

# AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ MÜHƏNDİS TƏMİNATI ÜZRƏ TƏDBİRLƏR DAVAM EDİR

Azad olunmuş ərazilərdə Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının hissə və bölmələrinin fəaliyyəti nəticəsində ötən həftə ərzində 199 ədəd tank əleyhinə, 94 ədəd piyada əleyhinə mina aşkar edilərək zərərsizləşdirib.

Bundan başqa, mürəkkəb relyefli, o cümlədən çətin keçilən qayalıq ərazilərdə nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətinin təmin edilməsi məqsədilə digər dövlət qurumları ilə qarşılıqlı əlaqədə 8 km-dək yeni təminat yolları çəkilib. Qısa müddət ərzində 300 km-dək mövcud təminat yolları təkmilləşdirilərək bərpa edilib.

Mina təmizlənmə işlərində əsas səylər azad edilmiş ərazilərdəki yaşayış məntəqələri, əkin sahələri, yollar və infrastruktur obyektlərinə yönəldilib.

Qeyd olunan ərazilərdə mühəndis təminatı üzrə zəruri tədbirlər plana uyğun davam etdirilir.